# Zaqatala nemətləri festivalı







Doğma məmləkətimizdə mövcud olan 9 iqlim qurşağı, bərəkətli torpaqlarımız və axar sularımız burada, demək olar ki, dünyanın bütün nemətlərinin ərsəyə gəlməsinə imkan versə də, hər region özünəməxsus məhsulları ilə məşhurdur. Zaqatala, ümumiyyətlə şimal-qərb bölgəsi fındıq, qoz və şabalıdın vətəni sayılır.

Doğrudur, qərzəkli meyvələrin bir qismi ölkəmizin müxtəlif yerlərində əkilib-becərilir; əsasən də Qəbələdən Balakənə qədər dağdibi ərazilərdə geniş yayılıb, kənd təsərrüfatının gəlirli sahəsini, sakinlərin dolanışıq mənbəyini təşkil edir. Zaqatalada yetişən şabalıd, qoz, fındıq isə həm dadına, həm iriliyinə, həm də yağlılığına görə nəinki ölkə daxilində, xaricdə istehsal olunan eyniadlı məhsullardan fərqlənir, dünya bazarında üstün yerləri tutur.

Bölgə sakinləri ləpə ixracından əlavə, ondan cürbəcür təam və şirniyyatlarda, tibbi-sağlamlıq nöqteyi-nəzərindən faydalılığında, qabığının preslənərək mebel sənayesində istifadədə çoxsaylı yeniliklərə imza atıblar. Maraqlıdır ki, bu məhsulların heç bir itkisi yoxdur, hətta yararsızı, çürüyü, qabığı, qərzəyi belə, evlərin qızdırılması üçün vasitədir...

Ona görə də Azərbaycanda I Beynəlxalq Fındıq-qoz-şabalıd Festivalının məhz bu rayonda keçirilməsi təsadüfi deyil. Zaqatala İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə baş tutan möhtəşəm tədbirə ölkəmizdə fəaliyyət göstərən 15-ə yaxın xarici ölkə səfirliyinin rəhbər və təmsilçiləri, nazirlik və dövlət qurumlarının nümayəndələri, Milli Məclisin deputatları, həmçinin fındıq istehsalçıları və ixracatçıları, rayon sakinləri qatılıblar.

Qonaqlar əvvəlcə Heydər Parkında Ulu Öndərin abidəsi önünə gül dəstələri düzərək, festivalın "Dədə Qorqud" meydanındakı açılışında iştirak ediblər. Meydanda qurulan "Kənd evi"ndə fındıq və qoz qabığı ilə sobanın yandırılması, bu məhsulların qovrulması, şabalıdın saxlanılma qaydası, təndirdə fındıq çubuqlarının yandırılması, at arabasının hazırlanması, müxtəlif milli xörəklərin bişirilməsi işlərini maraqla izləyiblər. Festival iştirakçıları həmçinin fındıq emalı və ixracı ilə məşğul olan müəssisələrin istehsal etdiyi məhsullarla tanış olub, rəsm və əl işləri sərgisinə, tətbiqi sənət nümunələrinə baxıblar.

Festivalın sonunda fındıq, qoz və şabalıdla bağlı müsabiqə qalibləri mükafatlandırılıb.

Tədbirə məşhur şoumen, incəsənət ustalarının, tanınmış müğənnilərin çıxışları ilə yekun vurulub. ❖

Azər Əlihüseynov













